# Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin iqtisadi siyasəti

(Əvvəli 3-cü səhifədə).

malik idi. 1918-ci il dekabrın 26-da bir illik müddətə bağlanan bu müqaviləyə əsasən, böyük ehtiyac olan məhsulların, bu respublikaların tələbatları çərçivəsində gömrük vergiləri qoyulmadan alınıb-satılmasına, habelə Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacları üçün müəyyən hədd həcmində neft, mazut, kerosin və yağların rüsumsuz ixracına icazə verilirdi. Müqavilədə göstərilirdi ki, gürcü əhalisi üçün kerosin buraxılması 1 milyon puddan, neft və neft məhsullarının ümumi satışı isə 20 milyon puddan çox olmamalıdır. Gürcüstanın bəzi məhsulların (daş kömür, meşə materialları və s.) neftin dəyərinin 1/10 hissəsi həcmində Azərbaycana gömrüksüz satılması nəzərdə tutulurdu. Müqaviləyə görə, alınan məhsulların başqa ölkələrə satışına icazə verilmirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Rusiya ilə iqtisadi əməkdaşlığa da böyük əhəmiyyət verir, neft, pambıq və başqa ixrac məhsulları üçün Rusiya bazarının əhəmiyyətini nəzərə alırdı. Təbii sərvət iqtisadi inkişaf üçün maddi baza olsa da, iqtisadi qüdrət və gücün təbii sərvətdən asılılığının həmişəlik olmadığı və gələcəkdə dəyişəcəyi Azərbaycan Xalq Cümhuriyyətinin istinad etdiyi başlıca iqtisadi müddəalardan biri idi.

Ancaq, fəhlə və dövlət qulluqçularının məvacibinin həcminin dəfələrlə qaldırılması haqqında Hökumətin qəbul etdiyi qərarlar büdcədə böyük kəsir yaradırdı və bu kəsirin də ödənməsi tarif normalarının artırılması və əlavə kağız pulların kəsilməsi hesabına həyata keçirildi. Bütün bunlar bahalığa və inflyasiyaya, zəhmətkeşlərin sosial vəziyyətinin pisləşməsinə səbəb olurdu. Sosial-iqtisadi sahədə xeyli işlər görülsə də, fəhlə məsələsinin, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin varlığı üçün ən vacib məsələlərdən olan aqrar məsələnin həll olunmaması əhalinin vəziyyətini pisləşdirirdi. Bundan istifadə edən sosialistlər fraksiyası və Azərbaycan Kommunist Partiyası əhali içərisində narazılığı artırmaq üçün öz pozuculuq fəaliyyətlərini daha da genişləndirmiş və XI ordunun Bakı əməliyyatı ərəfəsində Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi üçün əlverişli zəmin yarada bilmişdilər.

**Vüsal SƏMƏDOV,**
**RİH-nin aparıcı məsləhətçisi.**

# «Barlı bağlar» layihəsinin növbəti maarifləndirici tədbiri

***"Gilan" kənd təsərrüfatı qrupu "Barlı bağlar" layihəsi çərçivəsində mayın 4-də rayonun Mirzəbəyli kəndində "Mütərəqqi bağçılıq" mövzusuna həsr olunmuş növbəti maarifləndirici tədbir keçirib. Kənddə fındıqçılıqla məşğul olan fermerlərin iştirak etdiyi tədbirdə onlara bu sahənin inkişafı ilə bağlı nəzəri və təcrübi bilgilər verilib.***



Seminar-müşavirədə "Gilan Aqrocenter Group" MMC-nin Emal Departamentinin direktoru Üzeyir Pənahov fındıqçılığın strateji sahə olduğunu, ölkə başçısının göstərişinə əsasən bu sahəyə dövlət qayğısının artırıldığını və bununla əlaqədər bağbanlarımızın yüksək gəlir əldə etdiklərini diqqətə çatdırıb.

Maarifləndirici seminarda "Gilan" Qəbələ Yeyinti Məhsulları İstehsalı ASC-nin direktoru Anar İsmayılov çıxışında fındıqçılığın inkişafı istiqamətində görülən işlər barədə məlumat verərək fındıqçılığın, eləcə də kənd təsərrüfatının digər ənənəvi sahələrinin inkişaf etdirilməsinin dövlət başçısının diqqət mərkəzində olduğunu bildirərək son vaxtlar bununla bağlı davamlı tədbirlərin həyata keçirildiyini qeyd edib.

Sonra USAİD beynəlxalq təşkilatının təmsilçisi, fındıqçılıq üzrə aqronom Ziyafəddin Əliyev tədbir iştirakçılarına mövzu ilə əlaqədar mühazirə oxuyub.

Məlumat verilib ki, kənd təsərrüfatının ixrac potensialı yüksək olan fındıqçılığın rayonda daha da inkişaf etdirilməsi ilə bağlı xarici ölkələrin mütərəqqi aqrotexniki qulluq metodlarından istifadə edilməlidir. Eləcə də dünya ölkələrinin təcrübələrinə əsaslanmaqla ənənəvi qaydalara da əməl olunmasının yüksək məhsuldarlıq və yüksək keyfiyyət üçün stimul verdiyi bildirilib.

Ölkəmizdə fındıq istehsalının böyük bir hissəsinin məhz Qəbələ rayonunun payına düşdüyü diqqətə çatdırılaraq qeyd olunub ki, fındıqçılıq rayon əhalisinin əsas qazanc mənbələrindən biri hesab olunur. Rayonun digər kəndlərində olduğu kimi Mirzəbəyli kəndində də bu sahəyə maraq ildən-ilə artır.

Kənd sakinlərinə fındıq ağaclarının vaxtında əkilməsi, aqrotexniki qaydalara uyğun becərilməsi və tədarükünə dair faydalı məsləhətlər verilib, onların sualları cavablandırılıb.

"Gilan" kənd təsərrüfatı qrupunun təlim və inkişaf üzrə meneceri Jalə Əliyevanın və layihənin koordinatoru Fərid Fərəcovun iştirak etdiyi tədbirdə belə işgüzar görüşlərin fermer və sahibkarlar üçün olduqca əhəmiyyətli olduğu vurğulanıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# 2018-ci ilin birinci rübü ərzində rayonun sosial-iqtisadi inkişafı haqqında məlumat

(Əvvəli ötən sayımızda).

### Sənaye

2018-ci ilin ötən dövründə rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən 10032.2 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 39,4 faiz çox məhsul istehsal edilmişdir. Ümumi məhsul istehsalında qeyri - dövlət bölməsinin xüsusi çəkisi 77,5 faiz təşkil etmişdir.

Eləcə də rüb ərzində 6224 min manatlıq qida məhsulları istehsal olunmuş, 2252.7 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

İlin ötən dövrü ərzində rayondakı sənaye müəssisələrində çalışanların orta aylıq nominal əmək haqqı 388 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 22 faiz çox olmuşdur.

### Tikinti

İlin aprel ayının 1-i vəziyyətinə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 9813,0 min manat,(7786,0 min manatı dövlət mülkiyyəti, 2027,0 min manatı isə qeyri dövlət mülkiyyəti) tikinti quraşdırma işlərinin həcmi isə 9463,0 min manat ( 7482,0 min manatı dövlət mülkiyyəti, 1981,0 min manatı qeyri dövlət mülkiyyəti ) təşkil etmişdir.

### Mədəniyyət və turizm

Aprel ayının 1-i vəziyyətinə rayonda 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub müəssisəsi, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Rayonda 93 tarix-mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir.

Rüb ərzində Qəbələyə 62 mindən çox turist gəlmişdir.

### Təhsil

Rayonda 4 ibtidai, 11 ümumi orta və 53 tam orta məktəb fəaliyyət göstərir. Məktəblərdə təhsil alan 17148 nəfər şagirdin təlim tərbiyəsi ilə 2454 müəllim məşğul olur. Təhsil ocaqlarında şagirdlər 645 kompüterdən istifadə edir.

Mövcud 22 məktəbəqədər uşaq müəssisəsində uşaqların sayı 780 nəfərdir.

Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində 408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır.

### Səhiyyə

Cari ilin aprel ayının 1-i vəziyyətinə rayonda 1 müalicə diaqnostika mərkəzi 330 ümumi çarpayı sayı olan 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator poliklinika müəssisəsi fəaliyyət göstərir.

Tibb müəssisələrində 178 həkim, 461 orta tibb işçisi çalışır. Əhalinin hər 10 min nəfərinə 18,8 həkim, 48,6 nəfər orta tibb işçisi düşür.

### Nəqliyyat və rabitə

Cari ilin birinci rübü ərzində avtomobil nəqliyyatı ilə 314 min ton, əvvəlki illə müqayisədə 23 min və ya 8,5 faiz çox yük daşınmışdır.

İlin üç ayı ərzində rayonda 1958 min sərnişin daşınmış, bu da keçən illə müqayisədə 1.7 faiz və ya 32 min sərnişin çox deməkdir.

Eləcə də ilin birinci rübü ərzində rayonda 282 min manatlıq rabitə xidməti göstərilmişdir.

Rayonun rabitə müəssisələrində çalışan 106 nəfər işçinin orta aylıq nominal əmək haqqı 367 manat olmuşdur.

### İstehlak bazarı

İlin birinci rübü ərzində rayonun istehlak bazarında əhaliyə 9670 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 45950 min manat təşkil etmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 10,0 faiz və ya 4201 min manat çox olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 8,6 faiz və ya 3955 min manat təşkil etmişdir.

### Əmək haqqı, məşğulluq və işsizlik

2018-ci ilin birinci rübü ərzində rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 288.2 manat təşkil etmiş və 2017-ci ilin həmin dövrünə nisbətən 6.9 faiz artmışdır.

Məşğulluq mərkəzində 1 aprel 2018-ci il tarixə 825 nəfər işsiz vətəndaş qeydiyyata alınmış, onların 344 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir.

1 aprel vəziyyətinə məşğul əhalinin sayı 51682 nəfər təşkil etmişdir. Onların 23010 nəfəri muzdla işləyənlərdir.

Muzdsuz işləyənlərin 24084 nəfəri və yaxud 84,0 faizi kəndli təsərrüfatlarında, 4,6 faizi yaxud 1319 nəfəri fiziki şəxslər kimi, yerdə qalan 3269 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

### Yeni açılmış iş yerlərinin sayı

2003-cü ilin oktyabr ayının 1-dən 2018-ci il aprel ayının 1-nə dək rayonda 16907 yeni iş yeri açılmışdır ki, onun da 15108-i daimi iş yerləridir.

### Əhalinin sosial müdafiəsi

İlin birinci rübü ərzində Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi üzrə 11472 pensiya işi üzrə 11724 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur ki, onların 7668 nəfərinə yaşa görə, 2973 nəfərinə əlliliyə görə, 831 ailə üzrə 1083 nəfərə isə ailə başçısını itirməsinə görə pensiya təyin edilmişdir. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiyanın məbləği 2126.0 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 185.33 manat təşkil etmişdir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**

# Şuşasız 26 il

***Qarabağın incisi Şuşanın nə qədər gözəl təbiətə malik, alınmaz təbii qala olduğunu təsəvvür etmək üçün onu görmək, dağlarında, meşələrində gəzmək, büllur bulaqlarından su içmək, nəhayət cıdır düzünə baş çəkmək lazımdır.***

1992-ci ilin may ayının əvvəlindən erməni vəhşiləri hamilərinin köməyi ilə alınmaz qala Şuşaya hücuma keçdilər. May ayının 8-i bütün Azərbaycan Şuşada baş verənləri həyəcanla izləyirdi. Saat 5-də radio ermənilərin Şuşanın giriş qapısının yaxınlığında yerləşən yanacaq doldurma məntəqəsinə gəlib çatdığı barədə məlumat verdi. Şuşanı tanıyanlar bilir ki, bu artıq şəhərin işğalı demək idi. Beləliklə erməni vəhşiləri 1992-ci ilin mayın 8-də Şuşa şəhərini işğal etdilər. Şəhər vəhşicəsinə dağıdıldı.

Necə oldu ki, tarixdə bir neçə dəfə çox saylı İran qoşununa aylarla müqavimət göstərən şəhər bir dəstə başıpozuq quldurun işğalına məruz qaldı?

Bütün bunların cavabını o vaxt Azərbaycanın ictimai-siyasi həyatında baş verən hadisələrdə axtarmaq lazımdır.

Şuşa işğal olunarkən Bakıda hakimiyyət davası gedirdi. Xocalı hadisəsi ilə istefa verməyə məcbur olan Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov Şuşanın süqutundan istifadə edərək hakimiyyətə gəlməyə cəhd göstərdi. Ancaq AXC-Müsavat cütlüyü Ayaz Mütəllibovu qovaraq silah gücünə hakimiyyətə gəldi.

Alınmaz qala Şuşa isə işğal olundu. Ermənilərin Qarabağı Ermənistanla bir başa quru yolu ilə birləşdirmək cəhdləri Şuşanın ardınca Laçının işğalı ilə baş tutdu.

Şuşa artıq 26 ildir ki, Qarabağın digər dilbər guşələri kimi yağı tapdağındadır. Ermənistanda yaranmış xaos nəticəsində hakimiyyətə gələn populist Nikol Paşinyan mayın 8-də Şuşanın işğalının il dönümü ilə əlaqədar keçirilən tədbirdə iştirak edib. Çox maraqlıdır ki, Nikol Paşinyanın tüklü sifəti onun gözündəki qorxunu gizlədə bilmirdi. Bu vahimə başqasının mənzilinə girmiş oğruların baxışını xatırladırdı.

Şuşanın, bütün Qarabağın quldur dəstələrindən azad olunacağı gün uzaqda deyil. Bunu Nikol Poşinyan da onu oyuncaq kimi hakimiyyət sükanı arxasına oturdanlar da gözəl başa düşürlər. Aradan 73 il keçsə də faşist tör-töküntüləri İkinci Dünya Müharibəsindəki əməllərinə görə tapılır və mühakimə olunur. Sarkisyanları koçaryanları, balayanları, paşinyanları da belə bir aqibətin gözlədiyini yaxşı bilirlər.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**